### *"Əşyaların taleyi" layihəsi*

# Nurəngiz Günün evində bahalı əşya görə bilməzsiniz

## Millət vəkili Jalə Əliyeva: "Əşyalar sənin üçün onun aid olduğu insanın özü qədər dəyər kəsb etməyə başlayır"

**"Əşyaların taleyi" layihəsinin budəfəki qonağı millət vəkili, filologiya elmləri doktoru Jalə Əliyevadır. Jalə xanım şəxsi əşyalarından yox, anası - şairə, mədəniyyət xadimi Nurəngiz Günün əşyaları haqqında danışdı. Nurəngiz xanımın əşyalarının izi ilə həm şairənin özünün həm də qızının dünyadərkinə bələd olduq. Və müsahibə boyunca bir daha anladım ki, övlad ilə hər kəs öz nəfəsini dünyanın əbədiyyətinə üfürür...**




**- Jalə xanım, həyatınızda dəyəri olan əşyalar sizin üçün hansı mənanı ifadə edirlər?**

- Hər hansısa bir əşyanın məndə bir xatirəsi, yadigarı varsa, o, mənim üçün çox dəyərlidir və onlardan heç cür ayrıla bilmirəm. Bəlkə də, bu səbəbdən evdə əşyalar sarıdan bir az sıxlıq yaranır. Amma buna baxmayaraq, qadın xüsusiyyətidir; ildə bir neçə dəfə evimizə lap dərindən əl gəzdiririk. Hər bir əşyanın dəyəri mənim üçün onun arxasındakı şəxsdir. Yəni hesab edirəm ki, o əşyadan mən qurtularamsa, onu yox edərəmsə, onu bağışlayan insan - həyatda varsa da, yoxsa da, fərqi yoxdur, sanki ömürlük həyatımdan gedər. Və mən ona görə də mənə əziz əşyaları göz-bəbəyim kimi qoruyuram.

**- Sizin ananız, şair, mədəniyyət xadimi Nurəngiz xanımın əşyalara münasibəti necə idi, onlara qarşı hansı həssaslıqla davranırdı?**

- Nurəngiz xanım əşyabaz deyildi. Yəni əsla təmtəraqlılığı sevmirdi. Çox sadə bir həyatı vardı. Belə olduğu halda, evindəki əşyalar da təbii ki, çox sadə idi. Və həmin əşyaların dəyəri məhz ona aid olmasında və orijinallığında idi. Hətta təmir vaxtı evinin dizayneri də özü olub. Təmir zamanı evin daxili qapılarını və pəncərə haşiyələrini mavi rənglə boyamışdı. O vaxt bunu çoxları qəbul edə bilməmişdi. Deyirdilər ki, qapı, pəncərə ya qara, olar, ya ağ, ya da qəhvəyi. Amma anama bu rəng xoş idi. Kiçik rəsmlər çəkib bufetə qoymağı sevirdi. Ona da qəribə baxırdılar ki, bəyəm ora qoymağa başqa bir şey yoxdur?

Bilirik ki, uzun illərdən bəri baxımsız olan Balaxanı qəsəbəsi şəxsən cənab Prezident və hörmətli Mehriban xanımın göstərişi və Heydər Əliyev Fondunun təşəbbüsü ilə ötən ilin payızında qeyri-adi layihə ilə təmir edildi, abadlaşdırıldı. Ora çox insan axın edir. Mən ora ilk dəfə gedəndə - sentyabrın ortalarında sözün yaxşı mənasında çox təəccübləndim. Çünki orda gördüyüm atributların, o rənglərin, memari üslubun demək olar çoxu mənə evimizdə - anamın evimizi bəzəmək metodlarından tanış idi... Mən çox istəyərdim ki, layihənin memarı ilə görüşüm. Çünki o rənglər, o quruluş mənə tanışdır və onları zaman-zaman evimizdə görmüşəm. Amma çox təəssüflər olsun ki, həmin boyalar indi evimizdə yoxdur. Bir neçə il öncə - anam özü hələ dünyasını dəyişməmişdi mən o evi təmir etdirmək fikrinə düşdüm. Və təmirdə istədim ki, evə yeni ahəng gətirim, fərqli şərait yaradım. Beləcə təmirçilər onun məhz özünə xas ideyalarını yox etdilər. Və ev yeni üslubda təmir olundu. Anam bunu mənə heç cür bağışlamırdı. Və bu gün mən özüm də düşünürəm ki, onun o ideyası, yaradıcı dəsti-xətti evimizdə qalmalıydı. Və tez-tez deyirdi ki, sən neyləmisən, sən mənim evimdən nələr yaratmısan?

Fərqli ölkələrdən müxtəlif vaxtlarda gətirdiyi suvenirlər, o ölkəni xatırladan hansısa əşyalar bu gün də onun evini bəzəyir. Hətta bizim çilçırağımız, bütün evlərdə olduğu kimi heç vaxt büllurdan, daş-qaşlı və s. olmayıb. Məsələn, çilçırağımız çox sadə olub, taxtadan olub. O, çilçıraq evi tam işıqlı etmirdi. Nurəngiz xanıma deyəndə ki, bəlkə, dəbli, başqa bir yaxşı çilçıraq alıb asaq evə, o bunu qəbul etmirdi, həmin çilçıraqdan bütün evlərdə var, burax bizim evimizdəki də belə olsun, deyirdi. O, mürəkkəb həyata sadə tərəfindən yanaşırdı. Hətta həyatının son günlərində belə tövsiyələrindən biri bu idi ki, heç nəyin parlaqlığının, böyüklüyünün dalınca qaçmayın. Ev sadə və rahat olmalıdır, deyirdi. Həyatı heç bir vaxt madiyyat olaraq görmürdü. Bu gün də onun evinə girən olsa qeyri-adiliklərdən təəccüblənər. Çünki bu evdə bahalı əşya görə bilməzsiniz. Hamısı sadə, zövqlü, orijinal və eyni zamanda əlçatan əşyalardır. Nurəngiz xanımın "Qaçıram" adlı şeiri, məncə, bu söylədiklərimizin tam bədii əksidir:

*Boş haylardan*
*haraylardan,*
*təmtəraqlı*
*otaqlardan, -*
*saraylardan qaçıram!*
*Yersiz gülüşlərdən,*
*saxta, yaltaq öpüşlərdən*
*qazanc güdən,*
*söz üyüdən*
*görüşlərdən qaçıram!*
*Əli baltalı qollardan*
*dolam-dolaşıq yollardan,*
*boş küylərdən,*
*kələklərdən qaçıram!*
*Qarmalayıb səadətimi*
*özgəsinə sovqat verən,*
*sürükləyən*
*"küləklərdən" qaçıram!*

**- Nurəngiz xanımın evində sizin uşaqlığınızdan bəri gördüyünüz bir guşə olub. Həmin guşədə hansı əşyalar vardı?**

- O guşəni anam öz əlləriylə yaratmışdı. Mən o zamanlar orta məktəbdə oxuyurdum. Özümü xatırladığım illərdən bəri o guşə bizim evimizdə olub. O, guşə bir Türkiyə guşəsi idi. Bu da o zaman, o dövr idi ki, hətta "Türkiyə" sözü yasaq idi. Ümumiyyətlə Türkiyəyə sevginin ortaya çıxmasının həmin insan üçün böyük təhlükəyə çevriləcəyi, Sovet totalitar rejiminin tüğyan etdiyi bir dövr idi. Həmin guşədə Atatürkün, Nazim Hikmətin şəkilləri, türk fəsi, sazı vardı. Çox çətinliklə sərhədləri aşaraq gətirilən türk ədəbiyyatı kitabları da həmin guşəni bəzəyirdi. O zamanlar biz bəlli ideologiyaya görə türkiyəli şairlərdən ancaq Nazim Hikməti dərindən tanıyırdıq. Onun Bolqarıstanda çap olunan çoxcildliyini əldə edə bilmişdik. Nurəngiz xanım çox çətinliklə də olsa, digər türkiyəli müəlliflərin də əsərlərini evimizə gətirib çıxara bilirdi. Evimizdə o zaman türk şeiri antologiyası, Sabahəddin Alinin, Tevfik Fikrətin, Suat Dərvişin, Rəşad Nuri Güntəkinin, Mehmet Akifin, Orhan Vəlinin və s. kitabları var idi. Bütün bunlar böyük bir çətinlik bahasına əldə edilən kitablardı. Və eyni zamanda Türkiyənin ayrı-ayrı şəhərlərini, xüsusən də, İstanbulu əks etdirən açıqcalar həmin guşəyə qoyulmuşdu. Və bir də həmin guşədə tranzistorumuz var idi ki, gecənin müəyyən saatında Türkiyənin bir radio-stansiyasını tutub dinləyirdik. Gün ərzində bu mümkün olmurdu. Çünki sovet təhlükəsizlik orqanları tərəfindən qəsdən həmin verilişlərin dalğalar batırılırdı. Amma gecənin yarısı həmin dalğaların qənimlərini ya yuxu tuturdu, ya insafa gəlirdilər, hər nə idisə biz gözəl Türkiyə türkcəsini, musiqilərini dinləyə bilirdik. Guşədəki fəs isə türk fəsi idi, amma eyni zamanda da ona babasından yadigar qalan bir fəs idi. Nurəngiz xanımın babası bəy nəslindən olduğuna görə onlar ötən əsrin əvvəllərində sürgünə, repressiyaya məruz qalmışdılar. Ondan qalan bir yadigar da həmin fəs idi. Eyni zamanda həmin guşədə bəy babasından qalma evin yeganə və çox dəyərli bir əntiq əşyası da vardı. Bir zamanlar babasının, ulu babasının evində çilçıraq rolunu oynamış, sonradan müəyyən deformasiyalara uğramış sadəcə bir stolüstü əşyaya çevrilmiş, Fransadan gətirilmiş bir lampa. Bundan başqa, atasından qalma tütək də vardı. O guşə sonralar elə özü tərəfindən bir az şəkil dəyişdirsə də, yerləri dəyişsə də, sadaladığım əşyaların hamısı durur.

**- Nurəngiz xanımın balıqqulağılarına olan sevgisi hardan qaynaqlanırdı?**

- Evimizdə servantın bir mərtəbəsi balıqqulağılardan, yosunlardan, qamışlardan ibarət idi. O, təbiəti çox sevirdi, təbiətin vurğunu idi. Xüsusilə bitki aləminin qorunması onun üçün çox əhəmiyyətli idi. Bu gün görürük ki, bu işlər artıq dövlət səviyyəsində aparılır. Dənizi kimsə üzmək üçün sevir, biri təmiz havası üçün sevir və s. o isə dənizi maviliyinə görə, nəhəngliyinə görə sevirdi. Təbiətin bir parçası olduğuna görə sevirdi. Dənizin dibindəki canlılarına görə sevirdi. O, balıqqulağılarında da təbiətin bir hissəsini görürdü. Səyahət etdiyi ölkələrin dəniz kənarından öz əliylə toplayıb gətirdiyi müxtəlif ölçülü balıqqulağılarını evdə bir vitrinə düzmüşdü. Hətta balıqqulağılarını, yosunları belə düşünərək yazdığı şeirləri var:

*Göy sular!.. Yosunlar!..*
*Mən sizdən doymadım,*
*Dinləyərsizmi məni bir az da.*
*Sizin qədər sevmişdim*
*balıqqulaqlarını...*
*Ah, onlar sirdaşım,*
*nə qədər söz pıçıldadım*
*onların qulağına.*
*...Necə də incitmişəm sizləri,*
*bağışlayarsızmı məni,*
*Göy sular...yosunlar...*
*sədəflər?..*
*Dostlarım!*

Xüsusən də, ağaclara, quşlara həsr etdiyi, meşə örtüyünü, quşları tərənnüm edən həddindən çox şeiri var. Ümumiyyətlə təbiətə vurğun idi. Bu qəbildən şeirlərinin hər biri əslində alleqorik nümunələrdir. Gəlin sizə onun "Ört üstümü, ört meşəm" şeirini söyləyim:

*Salam, meşəm!*
*Mənəm də - həmən o "Vələs qızın".*
*Gəlmişəm...*
*Bir azca utanıram.*
*Naxələflik eyləmişəm.*
*Bilməmişəm, bilməmişəm!*
*Mən səni,*
*cəngi nəhəng bir şəhərə dəyişmişəm.*



**- Nurəngiz xanım həm də müxtəlif ölkələrdə səfərlərdə olub. Hansı ölkədən necə yadigarlar gətirirdi. Sizin də tez-tez xarici səfərlərdə olduğunuzu nəzərə alsaq bu sarıdan zövqləriniz oxşardırmı?**

- Mən də işimlə əlaqədar olaraq ildə bir neçə dəfə xarici səfərlərdə oluram və rəsmi iclaslar bitəndən sonra can atdığım yer, o ölkənin folkloru olduğu, o ölkənin keçmişini, əl işlərini xatırladan bir məkan, yaxud etnoqrafik bir mağaza olur. Nurəngiz xanım da insanların toplaşdığı açıq bazarları çox severdi. Çünki orada həqiqətən də, insan xislətlərini, həmin ölkənin insan tiplərini görürdü. Və bu xasiyyət mənə də ondan keçib.

***Davamı səhifə 15-də***



*Əvvəli səhifə 14-də*

## *"Əşyaların taleyi" layihəsi*

# Nurəngiz Günün evində bahalı əşya görə bilməzsiniz

## Millət vəkili Jalə Əliyeva: "Əşyalar sənin üçün onun aid olduğu insanın özü qədər dəyər kəsb etməyə başlayır"

Mənə də hansısa bahalı mağazaya yox, məhz o cür yerlərə getmək maraqlı olur. Oraya xas hansısa bir əl işini almaq xoşuma gəlir. Çünki sonra mənə o əşya həmin ölkəni xatırladır.

**- Vəfatından sonra hansı əşyası onu sizə daha çox xatırladır?**

- Onun bütün əşyaları mənə onu xatırladır, təbii ki. Nurəngiz xanım rəngarəngliliyi çox sevirdi. Qaynar rəngləri, dəniz rəngini, yaşıl rəngi çox sevirdi. Və bu rənglərdə olan əşyalar onun diqqətini cəlb edirdi. Təsəvvür edin ki, yaşına heç uyğun olmayan, amma o rəngləri ehtiva edən hansısa bir oyuncaq görübsə onu mütləq əldə edib servantın bir tərəfinə qoyurdu. Təbiətin bütün rənglərini, bütün qammalarını evdə yaratmağı sevirdi. Təbiətə hər dəqiqə çıxmaq imkanı olmurdu və "Hərdən pərvanə oluram" şeirində də qeyd etdiyi kimi, pəncərənin o biri tərəfində qalan nə varsa hamısını öz evində görürdü, tapırdı. Yəni evdə özü öz əliylə yaradırdı bütün bunları. Ona görə də ondan qalan hər bir əşya, hətta qırıq bir çöp də mənim üçün çox dəyərlidir. Və onun evində nəyi necə qoymuşdusa, nə şəkildədirsə, geyindiyi paltarlar belə olduğu kimi durur. Nəvələrim də onu görməsələr belə, bilirlər, qızım onlara təlqin edib ki, böyük nənənin əşyalarına əl vurmaq olmaz, nənə hirslənər. Mənim nəyim varsa nəvələrimə qurbandı, qırsınlar, dağıtsınlar. Amma onun əşyalarına əl vurmaq olmaz. Ölümündən bir neçə il əvvəl bizimlə birgə yaşayırdı. Özüylə mənim evimə nə gətirmişdisə hamısı qorunur. Öz evində olanlar isə ayrıca qorunur. Onların heç birinə uşaqların dırnağının ucu ilə toxumaq ixtiyarı yoxdur.

**- Onun əşyalarının dövlət tərəfindən hansısa muzeylərdə qorunması məsələsi barədə düşünürsünüzmü?**

- Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru, akademik Rafael Hüseynovla bu barədə söhbətimiz olub. O, direktoru olduğu muzeydə Nurəngiz xanımla bağlı bir guşə yaratmağı təklif edib. Və biz bu barədə müzakirələr aparırıq. Buna görə ona minnətdaram. Mən bir etiraf da edim ki, bu söhbətdən uzun bir müddət keçir. Mən onun dediyi əşyaları toplayıb ora verə bilmirəm. Ona görə yox ki, əşya yoxdur, əksinə, əşyalar həddindən artıq çoxdur. Sadəcə mən onlardan ayrıla bilmirəm. Əslində, bilirəm ki, dövlət muzeyində anama aid əşyalar mənim qoruduğumdan daha da yaxşı qorunacaq. Mən bunu dövlətin Nurəngiz xanıma göstərdiyi diqqət kimi qəbul edirəm və buna görə təşəkkür edirəm. Bir neçəsini cəsarətə gəlib toplamışam. Ən azından kitablarından, istifadə etdiyi bəzi əşyaları yığmışam. Amma o qədər onu xatırladacaq şeylər var ki, mən onların hamısını muzeyə verə bilmirəm. Amma təbii ki, bir sənətkarın adının əbədiləşdirilməsi və əsərərinin arxivləşdirilməsi üçün bu əşyaların muzeyə verilməsinin əhəmiyyətini də çox gözəl dərk edirəm. Ona görə də yaxın günlərdə anama aid əşyalardan bəzilərini muzeydə onun guşəsinin yaradılması üçün təqdim edəcəyəm.







**- Ananızın ailə üzvlərindən, nəsillərində qalma hansısa əşyaları qoruyurdumu?**

- Nurəngiz xanımın babası dövrünün tanınmış həkimi olub. Və həm Hüseyn Cavidin, həm də Nəriman Nərimanovun yaxın dostu, silahdaşı olub. Bir pantürkist damğası ilə onları 1937-ci ildə sürgün ediblər. Amma bu sürgün Sibirə yox, Güney Azərbaycana - İrana olub. Əsilləri, kökləri Ərdəbildən olduğuna görə onları ailəliklə hamısı - babası, nənəsi, xalaları, dayıları bir gecənin içində sürgün olunublar. Və özləriylə, əlbəttə ki, heç bir əşya da götürə bilməyiblər. Burada o nəsildən bircə nəfər - anamın anası qalıb. Nənəm isə o zamanlar burada artıq babamla nişanlı və nikahlı imiş. Və buna görə nənəm burada qala bilib. Onlar qısamüddətli getdiklərini, tezliklə vətənə dönəcəklərini zənn edirmişlər. Və tezliklə bu ayrılığın bitəcəyini düşündüklərindən ailənin son nümayəndəsini burda qoyub gedirlər. Amma təəssüflər olsun ki, belə olmayıb. Bu ayrılıq, bu sürgün, bu iztirab hələ o zaman dünyaya gəlməmiş Nurəngiz xanımın bütün həyatına, qanına işləyib. 90-cı illərin əvvəllərinə qədər də o əzizlərinə, doğmalarına qovuşmaq üçün gözlədi. 90-cı illərdə də məlum hadisələr oldu. Və sərhədlər açıldığı andan etibarən Nurəngiz xanım da digər həsrətlilər kimi onlara qovuşa bildi. Bu ayrılıq barədə bir şeirində yazır:

*O gedən,*
*saraydır...*
*Yeriyir, yıxılır, itib-batır dumanda,*
*Qalxır, yenə ağarır, yeriyir,*
*dərd verir...*
*O gedən haraydır!..*
*Yaxılır, dağılır, itib-batır dumanda,*
*oyanır, çağırır çən içi!.. Dərd verir...*

*O gedən*
*gedənlərimdir mənim!*
*Mehrabım, dərgahım,*
*şəhrü-yarım, həmşərim,*
*Həmşəhərli didələrim,*
*dədələrimdirlər mənim...*

*Gedənlər*
*könül abidələrim!-*
*səcdəgahım, can evim, tayfam-tuyfam,*
*qollarım, bədənim,*
*əllərimdirlər mənim!..*
*Ah, eyvah!..*
*Çağırıb, çağırıb... gediblər.*

**- Onlarla bağlı Nurəngiz xanımda hansısa əşyalar qalıbmı?**

- Bəli. Nurəngiz xanımın bir dayısı tanınmış rəssam olub. Hacı Ağakərim Hacızadə. Onun əsərləri bir çox dünya ölkələrində, hətta ABŞ-da nümayiş olunub. Nurəngiz xanımın ailəsindən ən çox həmin o dayısı ilə bağları olub. Bütün bu illər ərzində onlar məktublaşırmışlar. Yəqin ki, onları sənətə olan meyilləri birləşdirirmiş. Onların arasında çox böyük bir həsrət vardı. İranda yaşayan Hacı Ağakərim dayısı görüşməyi böyük həsrətlə gözləyib. Və heç vaxt da ailə qurmayıb. Əhdi olub ki, Azərbaycana qayıdanda burda qoyub getdiyi sevdiyi qızla evlənəcək. Və sərhədlər açılmağına üç gün qalmış o rəhmətə gedir. O zaman Təbrizdə, onun ölümü şeypurlarla xəbər verilib. Üç gün, üç gecə yas tutulub ölümünə. Çox böyük bir rəssam olub. O, həm də İran inqilabının iştirakçısı olub. Ona görə zindan



həyatı da yaşayıb. Hətta dayısının zindan şəkilləri də Nurəngiz xanımın evindədir. Ümumiyyətlə Nurəngiz xanımın ən dəyərli əşyalarının içərisində, əlbəttə ki, əzizlərinin əks olunduğu şəkillər əhəmiyyətli yerdə gəlir.

**- Nurəngiz xanım vəfat etmiş doğmalarının, əzizlərinin şəkillərini divarlara asdığına görə bir müsahibəsində öz evini "Ölülər qalereyası" adlandırmışdı. Bu qalereyanın içərisində yaşamaq onun üçün əzablı deyildi ki?**

- Təbii ki, çətin idi. Amma bunlar elə hislərdir ki, əgər sən doğulduğundan bəri bu duyğularla böyümüsənsə, o insanlar həyatının bir ayrılmaz parçası olubsa, həmin o şəkillərdən ayrılmaq daha çətin ola bilərdi, nəinki onları görmək. Və mən sizə deyim ki, onun otağındakı şəkillərin içərisində ancaq qan bağı, qohumu olan insanlar deyildi. Eyni zamanda da evimizdə dünya ədəbiyyatından çox sevdiyi simaların da rəsmləri vardı. Yaxud sevdiyi insanların, dostlarının şəkilləri vardı. Xatiri onun üçün əziz olan bir dostunun, bir rəfiqəsinin də şəklini servatın bir küncündə yerləşdirirdi. Amma tək də qoymurdu, yanına bir çiçək, bir şam, o insanla bağlı duyğularını inikas etdirən bir əşyada qoyurdu. O insanların xatirələrinin varlığı ilə yaşayırdı. Mən düşünürəm ki, Nurəngiz xanım o atmosferi yaratmaqla özünü həyata daha çox bağlayırdı. Çünki o repressiya, o sürgün, verdikləri qurbanlar hər çiynin, xüsusilə də, zərif qadın çiyinlərinin götürəcəyi bilməyəcəyi ağırlıqlardır. O, - Nurəngiz Gün özünü doğmalarının şəkilləriylə ovundururdu.



**- Necə düşünürsünüz, Nurəngiz xanımın sağlığında da, həmin əşyalar Sizin üçün indiki qədər məna kəsb edirdimi, yoxsa onun yoxluğunun doğurduğu həsrət hisslərinin də sizin həssaslığınıza təsiri var?**

- Əlbəttə ki, onun yoxluğunun həyatımın hər anına təsiri var. Hamımız gənc oluruq, valideynlərimiz sağ ikən həyata bir az fərqli baxırıq. Və onları itirəndən sonra sözün əsl mənasında hər hansı yaşda olursansa ol, yetimləşirsən. Ona görə yox ki, onları cismani itirirsən, ona görə ki, nəyisə bölüşəcəyin, paylaşacağın ən yaxın adam artıq sənin yanında olmur. Və ondan sonra ondan qalan xatirələr, əşyalar sənin üçün onun özü qədər dəyər kəsb etməyə başlayır. Və mən onunla bağlı bir epizodu danışım. Bir gün çəkiliş üçün evi səliqəyə salarkən kiminsə əli dəydi, onun xarici ölkədən aldığı lampa düşüb sındı. Bəlkə də, o lampanın maddi dəyəri bir neçə manat idi. Yaşıl rəngli, iki gözü olan balaca lampa idi. Bufetə qoymuşduq. İnandırım sizi ki, mən çox pis hala düşdüm. Atmadım təbii ki. Onu bərpa etməyin yollarını düşünürdüm. Bakıda bərpaçı tapdım. Bu əşyanı ona göstərəndə təəccübləndiyini gördüm. Axı bu çox balaca və ucuzlu bir şey idi. O, emalatxanasında fransız, italyan əsərlərini, əşyalarını bərpa edirdi. Ona dedim ki, bu əşya mənim üçün çox dəyərlidir. Sağ olsun bərpa edib verdi.



**- Əgər dünyada əşya kimi mövcud olmaq mümkün olsaydı, Siz hansı əşya olmaq istərdiniz?**

- Anamı xatırladan hər hansı əşya...

**Söhbətləşdi: Fərid Hüseyn**